3RD SHUSHA GLOBAL MEDIA FORUM

**“Rəqəmsal Keçidlər:
Süni İntellekt Dövründə İnformasiya və
Media Dayanıqlılığının Gücləndirilməsi”
mövzusunda 3-cü Şuşa Qlobal Media Forum**

Şuşa, Azərbaycan

# KONSEPSİYA SƏNƏDİ

# ÜMUMİ TƏSVİR:

Qloballaşan dünyada media landşaftının köklü dəyişməsi, açıq məlumat mənbələrinin informasiya axınına təsirinin güclənməsi, müxtəlif media platformalarına münasibətdə istehlakçı davranışlarının bir-birindən fərqlənməsi, eləcə də ictimai rəyə alqoritm əsaslı təsir alətlərinin formalaşması bu gün informasiya mühitində məsuliyyətli vətəndaşlığın təbliğini, media məhsullarının istehlakında və istehsalında etik standartların qorunmasını, dezinformasiyaya qarşı mübarizədə effektiv yanaşmanın tətbiqini, bütün bunların fonunda “media savadlılığı” anlayışının xüsusi diqqətdə saxlanılmasını, onun gücündən hərtərəfli istifadəni zəruri edir.

3-cü Şuşa Qlobal Media Forumu məlumatların ictimaiyyətə düzgün, şəffaf və etibarlı şəkildə çatdırılması ilə bağlı innovativ yanaşmaların öyrənilməsi, günümüzdə qlobal miqyasda təhdid hesab edilən dezinformasiyaya qarşı cəmiyyətin sayıqlığının artırılması, informasiya dövriyyəsi prosesində iştirak edən bütün tərəflərin məsuliyyətinə diqqət çəkilməsi, həqiqəti axtarmağın və qorumağın metodlarının araşdırılması, informasiya təhlükəsizliyinin təmini, media savadlılığının bütün bu proseslərdəki rolu və gücünün araşdırılması, sosial media və ictimai etimad məsələlərinə dair müxtəlif ölkələrdən olan rəsmilər, media və vətəndaş cəmiyyəti, dövlət və biznes nümayəndələri, media azadlığı üzrə müdafiəçilər, beynəlxalq təşkilatların təmsilçiləri, media ekspertləri üçün müzakirə və birgə hərəkət platforması rolunu oynayacaqdır.

Forum bütün qonaqları informasiya təhlükəsizliyinin təmin edilməsi və ictimai etimadın gücləndirilməsində media savadlılığının rolunu, bu anlayışa münasibətdə innovativ yanaşmaları araşdırmağa çağırır, daha məlumatlı və məsuliyyətli cəmiyyət qurmaq üçün strategiyaların müzakirəsi ilə bağlı qarşılıqlı əməkdaşlıq əlaqələrinin qurulmasını və gücləndirilməsini dəstəkləyir.

# FORUMUN PANEL MÜZAKİRƏ MÖVZULARI:

Forumda qlobal tendensiyaların təhlili və aktual suallara cavab tapılması məqsədilə aşağıdakı panel müzakirələri təşkil olunacaqdır:

**Panel 1**

İnnovativ yanaşmalar: Rəqəmsal dövrdə media savadlılığı

**Panel 2**

Media savadlılığı informasiya təhlükəsizliyinin təminatı kimi

**Panel 3**

Sosial medianın təkamülü ictimai etimada necə təsir edir: Media savadlılığının əhatəsində

# FORUMUN APARICILARI



**JANE WITHERSPOON**
Euronews



**GUY SHONE**
AnewZ

## Panel 1

### İNNOVATİV YANAŞMALAR: RƏQƏMSAL DÖVRDƏ MEDİA SAVADLILIĞI

Bu gün texnoloji tərəqqi məlumatın yaradılması və ötürülməsi proseslərinin avtomatlaşdırılmasını, süni intellekt və digər texnologiyaların istifadəsi ilə informasiyanın və onun mənbəyinin yoxlanılmasını mümkün etməklə yanaşı, istifadəçilərə kommunikasiya prosesinin daha təkmil aparılması məqsədilə müxtəlif imkanlar təklif edir.

Fərdlərin informasiyaya tənqidi yanaşma bacarıqlarının inkişafı, yəni media savadlılığının artırılması və müasir texnologiyalardan düzgün istifadə etmə qabiliyyətinin gücləndirilməsi qlobal miqyasda sağlam və etibarlı informasiya mühitinin formalaşmasında əsas amil hesab olunur. Bu bacarıqlar insanların doğru məlumatı yanlışdan ayırd etməsi, manipulyasiya və dezinformasiyanın qarşısını alması, həmçinin sosial şəbəkələrdə və digər rəqəmsal platformalarda etik və məsuliyyətli davranış sərgiləməsi üçün vacibdir.

Çağdaş medianın əsas anlayışlarından olan dezinformasiyanın yaradılması və yayılmasında süni intellektin yaratdığı reallıqlara qarşı həll yolu kimi istehlakçıların media savadlılığının artırılması, bu istiqamətdə yenilikçi yanaşmaların tətbiqi mürəkkəb media ekosistemində qarşılıqlı inam və etimad əlaqələrinin qurulması üçün əsas addımlardandır.



**MODERATOR:**
**ANDREA SANKE**
Aparıcı, "The Newsmakers" proqramı, TRT World

**ÇIXIŞÇILAR:**



**FERNANDO SOARES**
Aparat rəhbəri, Euronews;
Baş icraçı direktor, Euronews Baku



**ALEXANDRU GIBOI**
Baş katib, Avropa Xəbər Agentlikləri Alyansı (EANA)



**AINA ZADABEK**
İdarə Heyətinin sədri,
"Qazcontent" ASC



**OUBAI SHAHBANDAR**
Müxbir, AnewZ

## Panel 2

### MEDİA SAVADLILIĞI İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN TƏMİNATI KİMİ

Müasir və dinamik informasiya məkanı məlumat istehsalçıları və istehlakçıları üçün müxtəlif imkanlar yaratmaqla yanaşı, həm lokal, həm də qlobal miqyasda informasiya təhlükəsizliyinin təmin edilməsi istiqamətində ciddi çətinlikləri də özü ilə bərabər gətirir.

Müxtəlif platformalarda və fərqli məlumat kanalları vasitəsilə yayılan kütləvi informasiyanın geniş auditoriyada yaratdığı təsir və ümumilikdə formalaşdırdığı ictimai rəy bu gün informasiya təhlükəsizliyinin təmin edilməsini hər bir dövlətin, media subyektinin və digər əlaqəli tərəflərin əsas prioritetinə çevirmişdir. Bu təsir yalnız fərdi düşüncə tərzini və sosial münasibətləri deyil, həm də siyasi, iqtisadi və mədəni dinamikanı əhəmiyyətli şəkildə formalaşdırır.

Nəticədə, məlumatın doğruluğu, şəffaflığı və etik qaydalara uyğunluğu, həm də onun ictimai təsirinin idarə edilməsi müasir informasiya mühitində dövlətlər və media orqanları üçün strateji əhəmiyyət kəsb edir, səmərəli əməkdaşlıq, tənzimləmə və təhsil yanaşmalarının tətbiqini zəruri edir.



**MODERATOR:**

**NADIRA TUDOR**

Beynəlxalq xəbər aparıcısı və jurnalist

**ÇIXIŞÇILAR:**



**JAFFAR HASNAIN**

Aparıcı və müxbir,
TRT World



**ZIPHORA MAUBANE**

Kommunikasiya və təbliğat şöbəsinin rəhbəri,
Afrika İttifaqı İnkişaf Agentliyinin Baş Direktorunun Ofisi



**WANG DELU**

Baş redaktorun birinci müavini, Avrasiya Bürosu,
Çin Media Qrupu



**ŞƏFƏQ MEHRƏLİYEVA**

Fakültə üzvü, Kommunikasiya və Rəqəmsal
Media proqramı, ADA Universiteti

## Panel 3

### SOSİAL MEDİANIN TƏKAMÜLÜ İCTİMAİ ETİMADA NECƏ TƏSİR EDİR: MEDİA SAVADLILIĞININ ƏHATƏSİNDƏ

Əlçatanlıq və interaktivlik baxımından üstünlüklərə malik olan, geniş istifadəçi bazası və real vaxt rejimində məlumat paylaşmaq imkanları ilə seçilən sosial şəbəkələr informasiya mübadiləsinin və müzakirəsinin əsas resursuna çevrilmişdir.

Milyonlarla aktiv istifadəçisi olan və informasiya dövriyyəsində mühüm yer tutan rəqəmsal platformalar ictimai diskursu yönləndirərək yeni davranış modellərinin yaranmasına, həmçinin mediaya inam və etimadın formalaşmasına əhəmiyyətli təsir göstərir.

Məlumat həcminin kəskin şəkildə çoxalması, bəzi hallarda istifadəçilərin aldadıcı və ya çaşdırıcı məzmunların yayılmasında iştirak etməsi, alqoritm əsaslı məzmun süzgəcləri və selektiv məzmun təklifləri informasiya mühitinin təhlükəsizliyinin təmin olunması üçün dövlət, cəmiyyət, media və rəqəmsal platformalar arasında əməkdaşlığın təkmilləşdirilməsini, münasibətlərin sistemli şəkildə qurulmasını zəruri edir.

Sosial medianın siyasi və ictimai narrativlərin formalaşmasındakı rolu nəzərə alındıqda, cəmiyyətin mediaya olan inam və etimadının qorunub saxlanılması, rəqəmsal mühitdə məsuliyyətli davranışın təşviqi və etik standartların müəyyənləşdirilməsi, süni intellektin məzmun axınına təsiri, sosial media savadlılığı kimi məsələlərin müzakirəsi müstəsna əhəmiyyət daşıyır.



**MODERATOR:**
**MARIAM ZAIDI**
Aparıcı, TRT World

**ÇIXIŞÇILAR:**



**DR. KAREN SUTHERLAND**
SFHEA; İctimaiyyətlə əlaqələr üzrə baş müəllim, sosial media təlimçisi və tədqiqatçı, Biznes və Yaradıcı Sənayelər Məktəbi, UniSC



**DENNIS YU**
Google və Youtube üzrə ekspert;
Baş icraçı direktor, "BlitzMetrics" şirkəti



**SEAMUS CLANCY**
İctimai sektor, səhiyyə sahəsi və qeyri-kommersiya satış üzrə rəhbər, LinkedIn EMEA & LATAM



**SERGUEI SOKOLOV**
İctimai siyasət və dövlət məsələləri şöbəsinin direktoru, Rusiya, Şərqi Avropa, Mərkəzi Asiya və Monqolustan regionları, TikTok / ByteDance

# TƏKBƏTƏK GÖRÜŞ

**Təkbətək**

**SÜNİ İNTELLEKT DÖVRÜNDƏ JURNALİSTİKA: AVTOMATLAŞDIRMA ŞƏRAİTİNDƏ HƏQİQƏTİN QORUNMASI**



**MODERATOR:**

**KATIE WILSON**

Aparıcı, AnewZ



**SPİKER:**

**CLAUS STRUNZ**

Baş icraçı direktor, Euronews